# Dilimizdə söz sərrafı

**ifadəsi var və bu deyim adı bu ifadə ilə yanaşı işlədilənin sözün bütün çalarlarını görə bilmə məharətini bildirir; ixtisasca hüquqşünas olan, hazırda təqaüdçü Səlim Cəfərov kimi. O Səlim Cəfərov ki, onu poeziyanın (təkcə poeziyamızın yox!) bilicisi kimi tanıyıram. Şair olduğunu qətiyyətlə inkar edir. "Mən ömür sürmədim, ömür sürüdüm, Həyatım didilib yollarda qaldı" beyti yadıma düşəndə onun poetik dünyasını görürəm, uzaqdan uzağa da olsa pıçıldayıram: Gün aydın, şair Səlim Cəfərov! Əlisəmid Kürün də, Həmzəli İlyasın da, Fəxri Müslümün də, Kəmaləddin Qədimin də,... belə düşündüyünə zərrəcə şübhə eləmirəm...**

Vaxtaşırı görüşürük, könül söhbəti eləyirik: çağdaş ədəbi prosesdən, poeziyamızın dünənindən, bu günündən. Bu və ya digər hadisəyə özünəməxsus münasibəti heyrətləndiricidir bu söz sərrafının...

Səlim Cəfərov sözə ürəyinin gözüylə baxdığından onu bütün çalarlarıyla görür, duyur, yerinə düşməyən söz gözündən yayınmır. İllah da poeziyada. Gözəl bədii fikri könül xoşluğu bilir, gözəl şeiri könül xoşluğuyla oxuyur, yaddaşına köçürür, məqamında həmin şeir (misra, beyt) haqqında elə tutarlı, elə əsaslandırılmış təhlil aparır ki, heyrətlənirsən; həmin şeiri birlikdə dinləmişdik (oxumuşduq), nədən mən də duya bilməmişəm. Səlim müəllim poetik duyumunu qibtəediləsi poetik duyumdur.

R.Taqorun bir fikri bu anlarda düşüncələrimin şəriksiz cultanıdı: "Tanrı mənə hansı cəzanı verirsə versin, ancaq şeiri anlamayanarın yanında şeir oxumaqdan saxlasın". Bu baxımdan mən əzabdan qurtulmuşlardanam: şeirimi Səlim müəllimə oxuyuram...

Şeirlərimin birində "Bu ağ yel necə başladı" yazmışdım. Şeir bütövlükdə Səlim müəllimin xoşuna gəlmişdi (bir az tərifləmişdi də). "Bu ağ" sözlərinə iradını bildirməklə: "Ağ kəlməsində işıq çaları var", - dedi. "İşıqlı predmetə, işıqlı hərəkətə, dinamikaya etiraz qəbuledilməz. "Bu ağ yel" əvəzinə "Qara yel" yazmağın məsləhətdi, Faxralı: "Qara yel necə başladı" daha rəvan səslənir". Bu redaktəyə görə təşəkkür elədim.

Belə redaktələr az deyil...

Səlim müəllim ruhu rəvanlardandır. Özünün neçə yaşı tamam olur, bilmirəm, ruhunun yaşı ən azından Dədə Qorqud əyyamıyla səsləşir. Şeirlərimdə, məqalələrimdə az işlənən sözləri, ifadələri görüncə gülümsünür; belə sözlər, ifadələr ona könül xoşluğu verir...

Səlim Cəfərov söz sərrafıdı...

***

*Etriaf eləməsə də şair kimi*
*tanıdığım Səlim müəllimə*

*Söz adında nə qədər dövləti var, vergilidi,*
*Bilir ki, bəs eləyər hamıya sərmayə Səlim.*

*Təkliyin fəlsəfəsindən söz açar sərrafına,*
*Təsəlli ünvanıdı təklənən tənhaya Səlim.*

*Qəlbi paxırlar ilə ünsiyyətə tövbəlidi,*
*Danışır röyasını hər səhər dəryaya Səlim.*

*Söz olub, söz olacaq haləsi illər uzunu,*
*Dürr sözdən ehya verir hər günə, hər aya Səlim.*

*Ruhu rəvanlar üçün rəvan ruhun timsalıdı,*
*Ruhu rəvanlıq üçün gəlib bu dünyaya Səlim.*

*Təmənnalı həyatın mil salacaq gözlərinə,*
*Rəşid, düşmən kəsilib hər cür təmənnaya Səlim.*

**Rəşid Faxralı**